# Knarr Concresive 2715 FD

Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

Knarr Concresive 2715 FD epoksid əsaslı, iki komponentli, təmir, ankraj və montaj məcunudur.

## İstifadə sahələri

- Beton və daş divarlarda,
- Geniş çatların təmiri və izolyasiyası,
- Hər növ metal və polad hissələrin beton və polad konstruksiya elementlərinə yığılmasında və birləşdirilməsi,
- Çat hissələrdə xarici səthlərin örtülməsi və bərkidilməsi,
- Körpülərdə və körpü hissələrində qoruyucu barmaqlıqların və zəlzələ damperlərinin bərkidilməsi,
- Ankraj elementlərinin bərkidilməsi üçün istifadə olunur.

## Fiziki xassələri

| | |
|---|---|
| **Materialın quruluşu**<br>**Knarr Concresive 2175 FD COMP A**<br>**Knarr Concresive 2175 FD COMP B** | Epoksid reçinə<br>Epoksid sərtləşdirici |
| **Rəng** | Boz |
| **Qarışım sıxlığı (q/ml)** | 1.66 q/ml |
| **Qarışma miqdarı**<br>**Komponent A**<br>**Komponent B** | 3.75 KG<br>1.25 KG |
| **Təzyiq müqaviməti**<br>**1 gün**<br>**7 gün** | 30 N/mm$^2$<br>75 N/mm$^2$ |
| **Əyilmə müqaviməti**<br>**1 gün**<br>**7 gün** | 17 N/mm$^2$<br>25 N/mm$^2$ |
| **Yapışma müqaviməti ( 7 gün)**<br>**Betona**<br>**Polada** | >3,0 N/mm2<br>>3,5 N/mm2 |
| **Vurulma qalınlığı** | Min. 2 mm<br>Max. 30mm |
| **Səth istiliyi** | + 5°C - +30°C |
| **Pot Life müddəti (+20°C)** | 40 dəq |
| **Toxunma quruma müddəti (+20°C)** | 90 dəq |
| **Tam quruma müddəti (+20°C)** | 3 saat |
| **Tam kürlənmə (+20°C)** | 7 gün |

FM



*Göstərilən nəticələr 3mm qalınlıq üçündür. Vurulma qalınlığına və mühit tempraturuna əsasən nəticələr fərqlilik göstərə bilər.*

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com

# Knarr Concresive 2715 FD

Texniki Məlumat Səhifəsi

## Üstünlükləri

- Pasta konsistensiyasındadır, asan çəkilir, şaquli səthlər üçün uyğundur, axmır.
- Beton və polad üçün əla yapışma təmin edir.
- Tez mexaniki möhkəmliyini qazanır.
- Kimyəvi maddələrə qarşı davamlıdır.
- Su və qaz keçirməzdir.
- Yüksək doldurma qabiliyyətinə malikdir.
- Nəm səthlərə yapışma təmin edir.
- Solventsizdir.

## Səthin hazırlanması

Dəmir-beton elementlərin təmirində tətbiq olunan səth toz, yağ və tikinti tullantılarından, səthdəki zədələnmiş və boş beton parçalarından, polad səthlər isə qumlama ilə pasdan təmizlənməlidir. Qırılma nəticəsində yaranan səthin kənarları mümkün qədər perpendikulyar şəkildə kəsilməli, armaturun üzərindəki pas təmizlənməli, lazım olduqda yeni armatur əlavə edilməlidir. Səthdə su axını varsa, onu boşaltmaq və ya uyğun bir tıxacla bağlamaq lazımdır.

## Qarışdırma

Knarr Concresive 2715FD qarışdırma nisbətinə uyğun olaraq istifadəyə hazır dəstlərdə verilir. Qarışığa başlamazdan əvvəl materialın temperaturlarının +15-+25°C arasında olması təmin edilməlidir. B komponenti A komponentinə tamamilə boşaldılmalı və B komponentində heç bir material qalmadığına əmin olmaq lazımdır. Qarışıq ən azı 3 dəqiqə homojen bir qarışıq əldə olunana qədər qarışdırılmalıdır, təxminən 300 rpm-lik bir qarışdırıcı ilə paketin kənarlarında və altında heç bir qarışmamış material qalmamasına diqqət yetirilməlidir.

## İstifadə üsulları

Knarr Concresive 2715FD, hazırlanmış səthə spatula və ya mala ilə çəkilməlidir. Tətbiq qalınlığı ən azı 2 mm, ən çoxu 30 mm olmalıdır. Ankraj istehsalında, layihəyə uyğun olaraq, armaturun diametrindən ən azı 6 mm böyük olan bir qazma ilə boşluqlar qazılmalıdır. Qazılmış boşluqlar tel fırça və sıxılmış hava ilə təmizlənməlidir. Hazırlanmış material müvafiq məcun tapancasına doldurulmalıdır. Tapancanın başlığını boşluğun dibindən kənara çəkməklə  boşluq kifayət qədər Knarr Concresive 2715 ilə doldurulmalıdır. İstənilən uzunluqda və diametrdə ankraj çubuğunu çevirərək materialı çuxura daxil etmək lazımdır.

## Sərfiyyat

1 mm qalınlıq üçün təxminən 1,70 kq/m$^2$ -dır.

## Saxlama şərtləri

Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü 18 aydır.

# Knarr Concresive 2715 FD

Texniki Məlumat Səhifəsi

## Qablaşdırılma şəkli

3.75 kq-lıq A Komponenti və 1.25 kq-lıq B Komponenti olaraq istehsal olunur.

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi

Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər. Bu növ məhsullarda atmosfer şəraitinə və günəş işığından asılı olaraq rəng solması və təbaşirlənmə ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan qiymətlər əsasında yazılmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

**Qeyd:** “CMT Group” MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.

**“CMT Group” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com